# Qüdrətli söz ustadına həsr olunmuş elmi konfranslar

AMEA-nın Humanitar Elmlər Bölməsinin, Memarlıq və İncəsənət İnstitutunun təşkilatçılığı ilə "İncəsənətdə Nəsimi obrazı" mövzusunda respublika elmi-praktik konfransı keçirilib.

Konfransda sənətşünaslıq üzrə elmlər doktoru Sevil Fərhadova "İmadəddin Nəsimi poeziyası muğam-ozan konseptuallıq kontekstində", sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent Vidadi Qafarov "Nəsimi obrazının Azərbaycan teatrında səhnə təcəssümü" və Əməkdar incəsənət xadimi Ayaz Salayev "Nəsimi" filmi sovet dövlətinin qürubu dövründə milli özünüdərk amili kimi" mövzularında məruzə ilə çıxış ediblər.

AMEA-nın Folklor İnstitutunda keçirilən "İmadəddin Nəsimi və folklor" mövzusunda respublika elmi konfransında filologiya üzrə elmlər doktoru, professor Cəlal Qasımovun "İmadəddin Nəsimi yaradıcılığında insan və tanrı münasibətləri", filologiya üzrə elmlər doktoru İslam Sadığın "Nəsiminin tanrı-insan konsepsiyasının "Dədə Qorqud" və Şumer qaynaqları", filologiya üzrə fəlsəfə doktoru Atif İslamzadənin "Nəsimi dünyagörüşü Aşıq Ələsgər poeziyasının məzmun səviyyəsi kimi", filologiya üzrə fəlsəfə doktoru Elçin Qalıboğlunun "Nəsimi yaradıcılığında mifoloji obrazların məsəlləşmiş biçimdə ifadəsi" mövzularında məruzələri dinlənilib.

Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunda isə "İmadəddin Nəsimi: sələflər və xələflər – Orta əsrlər əlyazmaları və Azərbaycan mədəniyyətinin tarixi problemləri" mövzusunda XVII respublika elmi konfransı təşkil edilib. Konfransda institutun elmi işlər üzrə direktor müavini, filologiya üzrə elmlər doktoru, professor Paşa Kərimovun "Professor Cahangir Qəhrəmanovun nəsimişünaslıq fəaliyyəti", institutun əməkdaşları – filologiya üzrə fəlsəfə doktorları Nəzakət Məmmədlinin "Nəsimi və Əttarın "Ber aməd" rədifli qəzəllərinin müqayisəli təhlili", Tünzalə Seyfullayevanın "İmadəddin Nəsimi şeirləri cünglərdə", Azərbaycan Dövlət Pedaqoji Universitetinin professoru, filologiya üzrə elmlər doktoru Yaqub Babayevin "Nəsimi poeziyasında insan konsepsiyası" və başqa məruzələr təqdim olunub.

Mədəniyyət: xüsusi buraxılış.- 2019.- iyul. S. 46.